MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLIX buraxılış, Bakı, 2026
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLIX выпуск, Баку, 2026
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLIX edition, Baku, 2026

**UOT 78**
**ORCID: 0009-0006-5744-8983**
**DOI: 10.52094/WGHH5680**

**Zümrüd Məmmədova Mövlud qızı**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Baş elmi işçi, dosent**
medeni.elaqeler.info@gmail.com

# SƏMƏD VURĞUN POEZİYASINDA LİRİKA

**Xülasə:** Məqalədə Azərbaycanın görkəmli şairi Səməd Vurğunun yaradıcılığı tədqiq olunur. Şəməd  Vurğun yaradıcılığı Azərbaycan mədəniyyətinin ən parlaq səhifələrdən birini təşkil edir. Azərbaycanda və dünya ədəbiyyatında böyük iz buraxmış şairl\rdəndir. Səməd Vurğun təkcə ədəbiyyat sahəsinin nümayiəndəsi kimi deyil, xalqımızın həyatında həm də ictimai  rol oynamışdır. O, Azərbaycan poeziyasının klassik şairlərindən biridir. Azərbaycan ədəbiyyatını Səməd Vurğunsuz təsəvvür etmək mümkün deyil. Məqalədə bu xəzinənin sorağına çıxılır və araşdırılır. Onun şeirlərinə musiqi kontekstində nəzər yetirilir. Səməd Vurğun şeirlərinin daxili metroritmikası musiqidə istifadə üçün uyğunluq təşkil edir. Bu səbəbdəndir ki, bu şeirlərə yazılan mahnılar da olduqca melodik, ürəyəyatımlı və yaddaqalandır. Mahnıların əhatə dairəsi, musiqiçilərin mahnılara olan münasibəti də məqalədə tədqiq olunan digər mövzulardandır.

**Açar sözlər:** Səməd Vurğun, şeir, Azərbaycan poeziyası, mahnı, xalq şairi, Döyüşçülər marşı

Səməd Vurğun (Səməd Vəkilov, 1906-1956) Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olub, ibtiradi təhsilini burada almış və daha sonra 1918-ci ildə Qori Müəllimlər Seminariyasına qəbul edilmişdir. Seminariyada təhsilini davam etdirərək şeir yazmağa başlamış və ilk əsəri "Cavanlara xitab", 1924-cü ildə "Yeni fikir" qəzetində dərc olunmuşdur. Şeirin yaradıcılığı 1920-1930-cu illərdə ədəbi mühitdə diqqət mərkəzinə çevrilmiş, onun tərcümələri və öz əsərləri o cümlədən Puşkinin "Yevgeni Onegin" və Qorkinin "Qız və ölüm" əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur. 1929-cu ildə Moskva Universitetinin ədəbiyyat fakültəsinə daxil olmuşdur. 1934-1937-ci illərdə Səməd Vəkilov

"Şairin andı", "Könül dəftəri" və "Şeirlər" kimi əsərləri ilə tanınmağa davam etmişdir. Şairin dram sahəsindəki fəaliyyəti də əhəmiyyətlidir. Onun "Vaqif" dramı 1941-ci ildə "Stalin mükafatı"na layiq görülmüşdür. Böyük Vətən müharibəsi dövründə yazdığı "Ananın öyüdü" şeiri isə dünya ədəbiyyatında müharibə əleyhinə ən qiymətli əsərlərdən biri kimi qiymətləndirilmişdir.

Eyni zamanda Səməd Vəkilov Azərbaycan Elmlər Akademiyasının akademiki olmuş və bu sahədə də böyük xidmətlər göstərmişdir. 1945-ci ildən etibarən o, həm də Mədəni Əlaqələr Cəmiyyətinin rəhbəri kimi fəaliyyət göstərmiş, müxtəlif beynəlxalq konqreslərdə iştirak etmişdir.

O, Azərbaycan xalqının qəlbinə əbədi olaraq həkk olunmuş və haqlı olaraq əbədiyaşarlıq hüququ qazanmış ölməz sənətkardır. Onun cismani olaraq sıralarımızdan ayrılmağından illər və qərinələr keçmiş olsa da, o bu gün də hər bir Azərbaycan oxucusunun qəlbində yaşayır, qüdrətli söz adamı kimi, ağ saçlı alim kimi, müdrik el ağsaqqalı kimi həmişə hörmətlə yad edilir. Bu, bir də ondan irəli gəlir ki, "Azərbaycanın xalq şairi" fəxri adının ilk daşıyıcısı məhz Səməd Vurğun olmuşdur. Əsil sənət, saz-söz ustadı, eyni zamanda nəğməkar şair olan Səməd Vurğun bu yüksək mərtəbəyə xalqına, Vətəninə, Azərbaycanın əsrarəngiz təbiətinə vurğunluğu ilə gəlib çatmışdı.

Maraqlı faktlardan biri də 1986-cı ildə Səməd Vurğunun yubiley tədbirinin Ulu Öndər Heydər Əliyevin də iştirakı ilə Kremlin Qurultaylar Sarayında keçirilməsi olmuşdur. İfaçı olaraq tədbirdə iştirakımla bağlı xatirələr hələ də yadımdadır. Yubiley konsertində Xalq artistləri Alim Qasımov, Səkinə İsmayılova və mən, Zümrüd Məmmədovanın iştirakı ilə "Simayi-şəms" muğamını ifa olunmuşdur. Olduqca təntənəli tədbir idi. Bu Səməd Vurğun yaradıcılığına dövlət səviyyəsində verilmiş ciddi dəyərlərdən biri sayılır.

Nadir istedad sahibi olan şair sözün həqiqi mənasında dahi idi. Onun poemaları və dram əsərləri xalqın həyatının güzgüsü olduğu kimi, lirik şeirləri təbiətin və cəmiyyətin gözəlliklərini özündə əks etdirən qiymətli sənət nümunələri idi və nə xoş ki, bugün də belə olaraq qalır. Bu səbəbdəndir ki, xalqımızın qüdrətli oğlu, ümummilli lider Heydər Əliyev onun haqqında demişdir: *"Səməd Vurğunun "Azərbaycan" şeiri dillərdə əzbər olubdur. Bilirsiniz, o qısa sözlərdə o qədər dərin məna var ki, həmin sözləri hər bir insan dilinə gətirib təkrar edərkən öz xalqına, ölkəsinə bir daha məhəbbətini, sevgisini, sədaqətini ifadə edir"* (Əliyev, H. 2006, s. 76). Ölməz şairin tək bir şeiri haqqında söylənilən bu fikirləri əslində onun vətən və xalq mövzusunda yazmış olduğu bütün şeirlərinə də şamil etmək olar. Özünün doktorluq

dissertasiyasını dahi Səməd Vurğunun həyat və yaradıcılığına həsr etmiş xalq şairi Bəxtiyar Vahabzadə də bu ölməz şairin qüdrətini özünəməxsus bir dildə ifadə etmişdir: *"Vurğun sənəti xalq torpağından boy atdı, əsrin qabaqcıl ideyalarından bəhrələndi və bu iki amilə görə dən zəmisinin böyük sənətkarı oldu."* (Vahabzadə, B., 1984, s. 48)

Səməd Vurğunun yuxarıda adı çəkilən və indi də dillər əzbəri olan "Azərbaycan" şeiri Azərbaycan musiqi sənətində vətən mövzusunda yazılmış lirik mahnıların ilki, əzəli və daha çox populyar olanıdır desəm, yəqin ki, səhv etmiş olmaram. İndi bu şeirin məzmununu və ona həsr olunmuş mahnının motivlərini bilməyən yoxdur sözlərini də bu yazıda tam cəsarətlə qeyd edirəm. Bəstəkar Ələkbər Tağıyevin çox böyük və qüdrətli sənətkarlıqla bəstələmiş olduğu bu mahnı indi də müğənnilərimiz tərəfindən çox böyük şövqlə ifa olunur. Saməd Vurğunun Muğam payamasında olan "Ceyran" şeiri də bu qəbil mahnılardandır. Demək olar ki, səsi və avazı olmayan hər bir azərbaycanlı da bu mahnının məzmununu bilməklə yanaşı, həm də onu zümzümə etməkdən xüsusi zövq alır. Bu şeir əsasən saz üstündə oxunan mahnılardandır.

Səməd Vurğunun həyat və yaradıcılığına yaxından bələd olan hər bir azərbaycanlı oxucusu yaxşı bilir ki, o, 1955-ci ildə İstisuda istirahət edərkən özünün xəstəliyi ilə əlaqədar bu yerlərə bir də gələ bilməyəcəyini hiss etmiş və indi də əzbər olan aşağıdakı şeirini qələmə almışdır.

*Bəxt məni bu yerə qonaq göndərdi,*
*Gedirəm, yamandır, ayrılıq dərdi,*
*Demə Səməd Vurğun gəldi-gedərdi,*
*Unutmaz bu oba, bu mahal məni.*

Bu şeir də aşıqlarımızın repertuarında bugün də möhkəm yer tutmaqda və dinləyicilərin zövqünü oxşamaqdadır. Şairin saza olan marağı hərkəsə məlumdur. Təsadüfi deyil ki, aşıq sənətinə olan bu sevgi onun şeirlərinin abu-havasında da duyulurdu. *"Səməd Vurğun hələ şair olmamışdan əvvəl atasından oxumağı və saz çalmağı öyrənmişdi. Saz onun ən sadiq həmdəmi idi. Hələ şair kimi məşhurlaşmamışdam əvvəl o, mahalı el-el , oba-oba gəzəndə sazı da onunla bir yerdə gəzirdi."* ( Göyüş, R., 2026)

Dahi bəstəkarımız, unudulmaz Üzeyir Hacıbəyli yazırdı: *"Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir"* (Elektron Məlumat Bazası, 2026). Səməd Vurğunun lirikası bütövlükdə həyat fəlsəfəsidir. O, insanın daxili aləmini ifadə etməklə yanaşı, həm də onun təbiətlə əlaqəsinin harmonikliyini diqqətə çatdırır. Bu mənada bu

lirika həm də düşündürücüdür. Saməd Vurğunun şeirlərindən bəstələnmiş mahnıların Azərbaycan musiqi mədəniyyətində özünəməxsus yeri vardır. Elə buradaca fəxr və qürur hissi ilə qeyd etmək yerinə düşər ki, ilk dəfə dünya şöhrətli müğənnimiz, SSRİ Xalq artisti Zeynəb Xanlarovanın ifasında səslənmiş və yaddaşlara həkk olunmuş "Azərbaycan" mahnısı (musiqisi Ələkbər Tağıyevindir) hələ də öz şöhrətini qoruyub saxlamaqdadır.

Şairin "Şair, nə tez qocaldın sən" şeirinə unudulmaz bəstəkarımız Vasif Adıgözəlovun bəstələmiş olduğu vokal musiqisi də Azərbaycanın əməkdar artisti Ramil Qasımovun ifasında könülləri oxşayır, ruha dad verir.

Səid Rüstəmovun bəstələmiş olduğu "Oxu, gözəl" mahnısı ölməz sənətkarlarımız Şövkət Ələkbərovanın və Gülağa Məmmədovun ifasında bu gün də milli musiqi sənətimizin incilərindən sayılır. Aşıqlarımızın sevə-sevə oxuduqları "Dağlar" mahnısı isə həmişə olduğu kimi bugün də insanı öz ağuşuna alıb, "binələri çadır-çadır" gəzdirir və ona nostalji hisslər bəxş edir.

Səməd Vurğunun yüksək musiqi duyumu hər zaman özünü büruzə verirdi. Onun əsərlərinə yazılmış bəstəkar musiqisinin məşqlərində də iştirak edər, eşitdiyi cüzi not səhvliyini belə duyar, musiqi haqqında fikirlərini bildirərdi. Bəstəkarlarla sıx dostluq əlaqələri vardı. Müxtəlif mənbələrdə Səməd Vurğun haqqında sitatlara rast gəlmək mümkündür. Görkəmli bəstəkarlardan Əfrasiyab Bədəlbəyli, Fikrət Əmirov, Bülbül və b. çoxsaylı fikirlər söyləmişlər. *"Şairlə dostluq və yaradıcılıq münasibətində olan görkəmli bəstəkar Əfrasiyab Bədəlbəylinin xatirələrindən: "Bəstəkarlarımız çox vaxt ona (Səməd Vurğuna R.G.) öz aralarnda Azərbaycan Sovet şeirinin Üzeyiri deyirdilər...Səməd Vurğun saz çalmaqda xalq aşıqlarının bir çoxundan geri qalmaz, kefi gələndə hərdən tarını sinəsi üstə alıb, sarı simi narın mizrab ilə səslədər, gah da pəsdən zümzümə edər. O Azərbaycan muğamlarını professional musiqiçi qədər mükəmməl bilir"."* ( Göyüş, R., 2026)

Səməd Vurğunun şeirləri həmişə özünün axıcılığı və yaddaqalanlığı ilə diqqəti cəlb etdiyindən Azərbaycan bəstəkarları da tez-tez ona müraciət etmişlər. Azərbaycan musiqi sənətinin banisi, görkəmli mütəfəkkiri Üzeyir Hacıbəyli Səməd Vurğun poeziyasından vətənpərvərlik mövzusunda olan bir sıra şeirləri seçmiş və "Vətən ordusu", "Ey vətən", "Döyüşçülər marşı" və "Zəfər himni" adlı mahnılar bəstələmişdir. Fəxrlə demək olar ki, adı çəkilən mahnılar elə indi də milli musiqi sənətimizin nadir inciləri kimi dillər əzbəridir. Üzeyir Hacıbəyli və Səməd Vurğunun yaradıcı münasibətləri onları daim qarşılıqlı inkişafa aparırdı. *"Bəstəkar şairin "Şəfqət bacısı" şeirini yazmasının da mövzuverəni*

*olub və Mehdixan Vəkilov demişkən, Üzeyir Hacıbəylinin qadir nəğməsində xalq himni kimi qəlblərə yol açıb"* (Nəcəfxanlı, Ə., 2025, s.10).

Dünyaşöhrətli bəstəkarlarımız Qara Qarayev, Tofiq Quliyev, Vasif Adıgözəlov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Ələkbər Tağıyev, Fikrət Əmirov və nəhayət Rəşid Behbudov (bəstəkar kimi) Səməd Vurğunun yaradıcılığından yetərincə bəhrələnmiş və musiqi xəzinələrimizi zənginləşdirən bir sıra əsərlər yaratmışlar. Ona görə də Səməd Vurğunun şeirləri Azərbaycan musiqisinin qızıl fondunda yer alır. Onun sözlərinə bəstələnmiş mahnılar həm klassik, həm də estrada musiqisinin ayrılmaz hissəsinə çevrilmişdir.

1956-cı ildə vəfat edən şair, Azərbaycan ədəbiyyatının inkişafına və dünya ədəbiyyatında layiqli yer tutmasına böyük töhfələr vermişdir. Onun yaradıcılığı və fəaliyyəti bu gün də ədəbiyyatsevərlər tərəfindən yüksək qiymətləndirilir.

Nəticədə deyə bilərik ki, Səməd Vurğun yaradıcılığı olduqca zəngin bir milli sərvətdir. Məqalə Səməd Vurğunun 120 illik yubileyinə həsr olunmuşdur. Bir daha onun fəaliyyətini tədqiq etdikcə qaşımızda geniş, peysaj canlandı. İstər ədəbi mühitdə, istərsədə də musiqi mühitinə özünəməxsus yerə malikdir. Onun yaradıcılığı musiqi dünyasına da öz güclü təsirini göstərmiş və çox dəyərli nümunələr üzə çıxmışdır. Ümidvarıq ki, Azərbaycan milli musiqisi və bu sənəti zaman-zaman inkişaf etdirən sənət adamlarımız milli sərvətdən bundan sonra da yetərincə istifadə edəcəklər.

## Ədəbiyyat siyahısı

1. Heydər Əliyev irsi: Azərbaycanın davamlı inkişaf strategiyası / – Bakı: Azərbaycan nəşriyyatı. – 2006, – 784 s.
2. Nəcəfxanlı, Ə. Dahilərin dostluğu: Ü. Hacıbəyli -140 // Xalq qəzeti. – 2025, 19 avqust. – s. 10.
3. Vahabzadə, B. M. Səməd Vurğun. / red. Ç. Əlioğlu. B.M. Vahabzadə. – Bakı: Gənclik, –1984. – 377 s.

**Saytoqrafiya**

4. Elektron Məlumat Bazası / Bakı, 2026. URL: http://anl.az/el/emb/S.Vurgun/haqqinda-fikirler.html
5. Göyüş, R. Səməd Vurğunun musiqi dünyası / Bakı, 2026. URL: https://www.adalet.az/az/posts/detail/semed-vurgunun-musiqi-dunyasi-1771309329

**Zumrud Mammadova Movlud gizi**

## LYRICISM IN THE POETRY OF SAMAD VURGHUN

**Summary:** The article examines the creative activity of the outstanding Azerbaijani poet Samad Vurghun. The literary legacy of Samad Vurghun constitutes one of the brightest chapters of Azerbaijani culture. He is a poet and writer who left a profound mark on both Azerbaijani and world literature.

Samad Vurghun was not only a representative of the literary sphere but also played a significant public role in the life of the nation. He is regarded as one of the classical poets of Azerbaijani poetry. It is impossible to imagine Azerbaijani literature without Samad Vurghun.

This article explores and analyzes this rich creative heritage from various perspectives. Particular attention is paid to his poetry within a musical context. The internal metrorhythmic structure of Samad Vurghun's poems demonstrates their organic suitability for musical adaptation. For this reason, the songs composed based on his poems are distinguished by their melodiousness, expressiveness, and memorability.

The study also investigates the thematic and genre scope of these songs, as well as musicians' attitudes toward the compositions written on the poet's texts.

**Key words:** Samad Vurghun, poem, Azerbaijani poetry, song, People's Poet, March of the Fighters.

**Зумруд Мамедова Мовлуд кызы**

## ЛИРИКА В ПОЭЗИИ САМЕДА ВУРГУНА

**Резюме:** В статье исследуется творчество выдающегося азербайджанского поэта Самеда Вургуна. Творчество Самеда Вургуна составляет одну из самых ярких страниц азербайджанской культуры. Он является поэтом и писателем, оставившим значительный след как в азербайджанской, так и в мировой литературе.

Самед Вургун выступал не только как представитель литературной сферы, но и играл важную общественную роль в жизни нашего народа. Он считается одним из классиков азербайджанской поэзии. Невозможно представить азербайджанскую литературу без Самеда Вургуна.

Настоящая статья обращается к исследованию этого богатого творческого наследия и анализирует его с различных аспектов. В частности, его поэзия рассматривается в музыкальном контексте. Внутренняя метроритмическая структура стихов Самеда Вургуна демонстрирует их органичную пригодность для музыкального воплощения. Именно этим объясняется тот факт, что песни, созданные на его стихи, отличаются высокой мелодичностью, выразительностью и запоминаемостью.

В статье также анализируются жанровый и тематический диапазон данных песен, а также отношение музыкантов к произведениям, написанным на стихи поэта.

**Ключевые слова:** Самед Вургун, стихотворение, азербайджанская поэзия, песня, народный поэт, Марш бойцов.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 24.02.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 01.03.2026**